## «Tax Tribune» jurnalı təqdim edir

IOTA-nın «Tax Tribune» jurnalının 28-ci nümrəsi bu yaxınlarda zapdan zıxıb. Jurnalda IOTA-ya üzv ölkələrin vergi inzibatzılığı sahəsində həyata kezirdikləri islahatlar, bu sahədə aparılan təkmilləşmələr və əldə olunan nailiyyətlər, vergi sahəsində qabaqcıl təcrğbə barədə məqalələr dərc olunub.

### Vergi orqanlarının fəaliyyətinin qiymətləndirilməsində innovasiyalar: Azərbaycan təcrübəsi

IOTA-nın «Tax Tribune» jurnalının 28-ci buraxılışında (2012-ci il) vergilər nazirinin müşaviri Asəf Əsədovun «Vergi orqanlarının fəaliyyətinin qiymətləndirilməsində innovasiyalar: Azərbaycan təcrübəsi» adlı məqaləsi çap olunmuşdur.

Məqalədə vergi orqanlarında fəaliyyətin qiymətləndirilməsində yeni yanaşma, innovativ metodoloji və avtomatlaşdırma aspektləri təqdim edilir. Xüsusi olaraq qeyd edilir ki, vergi orqanları öz qiymətləndirmələrinin obyektivliyinin təmin edilməsi üçün iş proseslərinin və insan resurslarının daxildən qiymətləndirilməsini apararakən kənar qiymətləndirmə usüllarından da istifadə etməlidir. Vergi orqanı müxtəlif sahələr üzrə öz fəaliyyətinin düzgün qiymətləndirilməsini aparmaq istəyirsə, eyni fəaliyyət sahələri üzrə vergi ödəyiciləri tərəfindən vergi orqanlarının qiymətləndirilməsi nəzərə alınmalıdır. Digər tərəfdən, hər bir ölkənin vergi orqanı öz qiymətləndirməsini beynəlxalq standartlara uyğun aparmalıdır ki, bu da öz növbəsində, IOTA-ya üzv ölkələr arasında beynəlxalq qiymətləndirmə standartlarının qəbul olunmasını tələb edir.

Məqalədə göstərilmişdir ki, 2004-2008-ci illər ərzində Vergilər Nazirliyində avtomatlaşdırılmış planlaşdırma sistemi, biznes proseslərinin və işçi heyətin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi işlənib hazırlanmış və mərhələlər üzrə həyata keçirilmişdir. Bu planlaşdırma və qiymətləndirmə sistemi idarəetmə prosesləri (planlaşdırma və hesabatlılıq, monitorinq, treninq, layihələrin həyata keçirilməsi və s.) adlanan proseslərə və vergi orqanlarının fəaliyyətinin müxtəlif sahələrinə (vergi bəyannamələrinin emalı və təhlili, audit, operativ nəzarət, vergi borclarının məcburi alınması, vergi ödəyicilərinə xidmət) aid biznes proseslərinin tarazlaşdırılmış əsas səmərəlilik meyarlarının (ƏSM - ingilis dilində KPI, key performance indicators) hazırlanmasına əsaslanır.

Biznes proseslərinin bu və ya digər növlərinə aid ayrı-ayrı iş növləri üzrə proqnozlaşdırılan və ya planlaşdırılan ƏSM göstəricilərinin icra dərəcəsini aşkara çıxarmaqla bu və ya digər biznes proseslərinin həcmini, keyfiyyətini və vaxtında icra olunmasının aqreqat qiymətini avtomatik hesablamaq və həmin biznes proseslərində iştirak edən strukturların fəaliyyətinin səmərəliliyinə müvafiq qiymət vermək mümkündür. Biznes proseslərinin və strukturlarının səmərəliliyinin qiymətləndirilməsi ilə yanaşı, nazirlikdə işçilərin qiymətləndirilməsi və motivasiyası üzrə innovativ avtomatlaşdırılmış sistem hazırlanaraq tətbiq edilmişdir. Bu sistem işin vaxtında görülməsindən, keyfiyyətindən, həcmindən, eləcə də icrasının mürəkkəbliyindən asılı olaraq hər bir işçinin gündəlik, həftəlik və aylıq iş məhsuldarlığını müəyyənləşdirməyə, işçinin işə yaradıcı yanaşma qabiliyyətini və bilik səviyyəsini qiymətləndirməyə imkan yaradır. Avtomatlaşdırılmış sistemdə hər altı ayda bir dəfə nazirliyin bütün sıravi işçilərinin beş meyar üzrə (icraçılıq səviyyəsi, təşəbbüskarlıq və yaradıcılıq qabiliyyəti, kollektivdə qarşılıqlı münasibətlər, peşəkarlıqla bağlı və ümumi bilik səviyyəsi, etik davranış kodeksinin tələblərinə əməletmə) əldə etdikləri fərdi nailiyyətlər barədə avtomatik şəkildə elektron hesabatlar yaranır. Sıravi işçilər əldə etdikləri nailiyyətlər əsasında mükafatlandırılırlar. Rəhbər işçilərin qiymətləndirilməsi konkret rəhbər işçilərin idarəçiliyində olan strukturun və ya strukturların iştirak etdikləri biznes proseslərinin icra səmərəliliyinin qiymətləndirilməsinə əsaslanır.

Biznes proseslərinin səmərəliliyinin planlaşdırılması və işçilərin qiymətləndirilməsi üzrə avtomatlaşdırılmış sistemin tətbiq olunması sayəsində hər rüb AVİS sistemində avtomatik rejimdə proseslərin səmərəliliyinin və strukturların fəaliyyətinin qiymətləndirilməsi barədə üçrəngli formatda, fəaliyyət göstəricilərinin kritik məqamlarını əks etdirən sadə və asan başa düşülən hesabatlar yaranır. Risklərin ilkin monitorinqi (riskin idarə olunması) üzrə bu cür elektron sistemin köməyi ilə vergi inzibatçılığının bu və ya digər proseslərinin problemləri ilə bağlı riskləri tez müəyyənləşdirmək,

bunun üçün hansı strukturlarının cavabdeh olduğunu aşkara çıxarmaq və risklərin aradan qaldırılması üçün vaxtında tədbir görmək mümkün olur.

Vergilər Nazirliyinin idarəetmə sistemi gələcəkdə qərarların qəbul edilməsi üzrə kompüterləşdirilmiş ekspert informasiya sisteminin yaradılması ilə dəstəklənəcək. Bu sistem biznes proseslərinin səmərəliliyinin qiymətləndirilməsinə, texnoloji inkişafın, insan potensialının və korporativ mədəniyyətin inkişaf səviyyəsinin qiymətləndirilməsinə, eləcə də vergilərin yığılması üzrə proqnoz göstəricilərinin yerinə yetirilməsi səviyyəsinin qiymətləndirilməsinə və vergidən yayınmanın səviyyəsinin aşağı düşməsinin qiymətləndirilməsinə əsaslanır. Bunlarla yanaşı, vergi ödəyiciləri arasında aparılan sorğuların nəticələri, həmçinin IOTA tərəfindən hazırlanmış vergi inzibatçılığının «qızıl standartları» kimi qəbul edilən səmərəlilik indikatorları üzrə vergi orqanlarının fəaliyyətinin nəticələri barədə kənar ekspertlərin qiymətləndirmələri mühüm əhəmiyyət daşıyacaq. Bu, Azərbaycanın vergi sisteminə şərait yaradacaq ki, səmərəli vergi sisteminin ən yüksək beynəlxalq standartlarına cavab verən, cəmiyyətin və vətəndaşların maraqlarının qorunmasına yönəldilmiş vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi proseslərinə daha sürətlə və daha səmərəli inteqrasiya olunsun.